**UOT 7.08**
**https://doi.org/10.59849/2311-8482.2024.1.218**

**LƏMAN MƏMMƏDOVA[1] , ELŞƏN XUDİYEV[2]**

# XVIII ƏSR TƏSVİRİ SƏNƏTİNDƏ PORTRET JANRININ ƏHƏMİYYƏTİ

*XVIII əsrin astanasında biz sanki hansısa yeni insan nəsli ilə qarşılaşırıq. Onlar əvvəlki yüzilliyin rəssamları tərəfindən təsvir olunan obrazlardan öz zahiri siması, əda, davranışı ilə o qədər gözəldirlər ki... Rəssam və ya onun yaratdığı İntibah obrazlarının qəhrəman gücünü qoruyan əsərlərdə olduğu kimi XVII əsr incəsənətində parlaq, əzəmətli fərdilik üstünlük təşkil edirdi. İncəsənət, demək olar ki, saray zadəganlarının və kübar cəmiyyətinin tələblərinə uyğun istiqamətdə inkişaf edirdi. Rembrandt van Reyn, Piter Paul Rubens, Nikola Pussenin tablolarında gördüyümüz Vilyam Şekspir personajlarına bənzər insanlar özünün mənəvi ruhi gücü, qaynar aktivliyi, ehtiraslı həyəcan qabiliyyəti ilə valeh edir. Bütün bunlar XVIII əsrdə saray-aristokratiya mədəniyyətinin tarazlaşdırılmış təsiri altında yox olur.*

***Açar sözlər:*** *XVIII əsr incəsənəti, rəssam, heykəltəraş, portret janrı, rəngkarlıq, heykəltəraşlıq, sənətdə bədii obraz*

## Giriş

Əgər indi istənilən alim, sərkərdə, rahib portretdə ilk əvvəl nəzakətli kavaler olaraq baxırsa, mərd qəhrəmanların yerinə balet artistlərini xatırladan incə fiqurları görürük. Bu epoxada qadın bütün kübar həyatın mərkəzinə çevrilir. O, sarayda, teatrda, salonlarda hökmranlıq edir, siyasət və elmlə məşğul olur, zövq və incə davranış qaydaları sahəsində qanunverici olur. Buna görə də heç də təsadüfi deyil ki, məhz qadın obrazı XVIII əsr incəsənətini şərtləndirirdi və müəyyən edirdi. Bu obraz özündə ifadə olunan gözəllik tipinə görə şahanə, əzəmətli İntibah qadınlarından və parlaq təmtəraqlı Rubens qəhrəmanlarından əhəmiyyətli dərəcədə uzaqdır. Klassik antik idealdan isə danışmağa belə ehtiyac yoxdur. Simanın düzgün cizgiləri və eynilə mühüm olan gözəl, əzəmətli qamət tamamilə dəbdə deyildi [1].

## Əsas təhlil

XVIII əsr qadını – maraq oyadan, həmişə gülümsəyən üzü, canlı gözləri, və cilvəli jestləri ilə incə, kövrəkdir. İstər bu tualet masası arxasında Venera, özünün quzuları ilə çoban qızı və kübar qadın olsun, bizim qarşımızda yenə də həmin incə, eyni zamanda uşaq hərəkətli, və zərif-füsunkar, bəzən düşüncəli-süzgün, bəzən də şux, meydan oxuyan obraz durur. Kübar cəmiyyətinin bədii zövqlərini ifadə edən rəssamlardan Vatto və Buşenin əsərlərində qarşımızda real həyatdan uzaq şirin xəyal aləmi, məhəbbət dünyası durur. Görkəmli fırça ustası Vatto ilk olaraq əsrin bu yeni idealını sezir və bu idealı sonradan şairanə, kompozisiyada ifadə etmək üçün naturadan çəkdiyi özünün rəsmlərində və saysız-hesabsız şəkillərində təcəssüm etdirir. Özündən əvvəl başqa heç kimdə olmadığı qədər Vatto fizionomiyanın hərəkətli oyununu, demək olar ki, görünməyən gizli duyğuları, süzgün və birdən gülüşü söndürən iti baxışı dərhal anlayırdı. Biz onun əsərlərində heç vaxt güclü jest və güclü ekspressiya görməyəcəyik. Onda hər şey eyham, hər şey vəd, hər şey oyun, bəzən kədərli xatirələr və ya xəyalpərəst diqqətsizlikdir. Vatto sanki, skripkada düzgün kökü tapmaq üçün akkordları yoxlamaq üçün, eyni bir obrazı müxtəlif dönüş və rakurslarda saatlarla çəkə bilərdi. Rəssamın yüngül, əsəbi, hərəkətli rəsmi hər şeydən çox eyni ilə qəşəng bərq vurma və yüngül yarım tonların uyğunluğu əsasında qurulmuş zərif, son dərəcə incə rəng çaları kimi onun obrazlarının xarakterinə uyğun gəlirdi.

Baxmayaraq ki, sonrakı dövr ustalarından heç biri bu sahədə belə poetikliyə və psixoloji incəliyə sahib deyildilər, "bayramların, şənliklərin" professional ustası olan Vatto tərəfindən kəşf edilmiş qadın gözəlliyinin yeni cizgiləri XVIII əsrin bütün incəsənəti üçün xarakterik olmuşdur.

İtalyan rəssamı Rozalba Karreranın rəqqasə Barberinanın portretindəki kimi, özünün bütün kövrək lətafəti və dəcəl məlahəti ilə rokoko incəsənətində təsvir olunan XVIII əsr qadın idealı gözlərimiz önündə durur. Rəqs edən fiqura uyğun yüngül mailik, incə, uzaqlara dikilmiş gözlər, balaca, gülümsəyən dodaqlar, zərif saçlarındakı mirvari və güllər, zərif geyimdəki krujevaların incəliyi və mavi ipəyin rəng çalarları və s. ilə portret insanı valeh edir. Portretdə əsrin ümumi tipinə xas olan modelin fərdi cazibədarlığı və xarakterik cizgiləri gözəl bir vəhdətdə birləşir [2].

Fransız kralı XV Lüdovikin məşhur saray rəssamı olan Fransua Buşe öz zəmanəsinin zövqlərinin əsl qanunvericisi olmuşdur. Rəssamın rəsmlərindəki qadın onun öz zəmanəsinin qəliz,

ibarəli dəbi əsasında gah təmtəraqlı krinolinlə, krujevalar ilə bəzədilmiş olur, gah da rəssam özünün saysız-hesabsız Veneraları, Avroraları və ya nayadlarının (qədim yunan mifologiyasında nimfalar, göllərdə və kiçik çaylarda yaşayan ilahələr) gözəlliyini təsvir edərkən, həyata bəzək-düzək vurur, ona süni və uydurulmuş əyləncə nəzəri ilə yanaşır.

Artıq aristokrat incəsənətinin daha səthi tərəfini təmsil edən, XVIII əsrin bir çox dəbdə olan rəssamları üçün xarakterik olmağa başlayan insan şəxsiyyətinə itən bu marağa zidd olaraq, XVIII əsrin əvvəllərində Vattonun yaradıcılığından başlayaraq, aydın şəkildə inkişafa keçən insan hisslərinin təhlilinin həmin maraqlı xəttini qoymaq olar.

Laturanın rəsmlərində, xüsusilə də məşhur olan etüdlərində biz həmin ifadəliliyə, hisslərin, daxili aləmin canlı verilməsi cəhdinə şahid oluruq. Onun portretlərində hər şeydən çox heyran edən, onların incə intellektualizmidir. Rəssamın modelləri gah gözəl, gah eybəcər, xəyalpərəst və ya açıq-saçıq, qəddar ya da ürəyiyumşaqdır. Mənəvi üstünlüyü ifadə edən bu ağıl, fikirlərin canlılığı Laturanın hər bir portretində işıq saçır. Bütün Latura portretlərinin, həmçinin də XVIII əsrin bütün portretlərinin dəyişilməz cizgisi təbəssümdür. O, kübar lütfkarlığının mütləq ifadəsi idi, eyni zamanda portret obrazının inkişafında yeni məqamın – tamaşaçı ilə təmasda müxtəlif hisslərin yaranmasının ortaya çıxması idi. Laturanın modellərinin daxili aləminə daha təsirli təmas etməyə və öz üzərində onların zərif cazibəsini sınamağa imkan yaradan təbəssümün məhz bu xüsusiyyəti onun portretlərində xüsusilə hiss edilir.

XVIII əsrin sonunda sentimentalizmin təsiri ilə təsviri incəsənətdə yavaş-yavaş daha çox hökmranlıq edən zərif aristokratik idealın sərhədlərindən çıxmağa və təbiilik, eyni zamanda sadəliyə yaxınlaşmağa meyl güclənir. Bu tendensiyaların əsas ifadəçisi çoxlu portretlərin müəllifi Qryoz olur (Jan Batist Qryoz ən çox qadın, uşaq portretlərinin müəllifidir) [3]. Onun "Naməlum kəndli qadının portreti"ndə kəndli qadının obrazı əsl sadəlik və dərin dürüstlüklə nəfəs alır.

XVIII əsr təsviri incəsənətinə dönərkən, həmin illərdə özünün çiçəklənmə dövrünü yaşayan ingilis rəssamlıq məktəbinin göstərdiyi parlaq və poetik obrazları xüsusi vurğulamaq lazımdır. Əsas olaraq portret üzərində işləyən ingilis rəssamları ən başda isə Qeynsboro modelin gerçək təsvirinin tez-tez həyəcanla və ürəkdən büründüyü lirizmlə müxtəlif və xarakterik tiplərin zəngin qalereyasını yaradır. Məhz burada Qeynsboronun XVIII əsr bir çox portretçilərindən fərqi gizlənir. Qeynsboroda təsvir olunan simaların şövqü həmişə sanki onun şəxsi cavab hissi ilə isinir və bu onun modellərinə həmin özünəməxsus məftunedicilik, bütün sənətinə xüsusi cazibə qazandırır [2].

Gözəl obrazın bu ali etik, ictimai məzmununda artıq aydın şəkildə XVIII əsrin sonunda bütün Avropada aparıcı bədii cərəyana çevrilən klassisizmin ideyaları əks olunur. Antik dövrün yüksək nümunələri ilə ruhlanan klassisizm rokoko incəsənətinin parıltısı və təmtəraqlılığa zidd idi [4]. Eyni zamanda sadə və ali olan gözəlliyin yeni idealının meydana gəlməsi maarifçilərin qabaqcadan xəbər verdiyi həmin işıqlı cəmiyyətin təsəvvürlərinə uyğun gəlirdi. Yalnız ən alicənab hisslər və qəhrəmani hərəkətlər rəssama mövzu olaraq xidmət etməli idi və yalnız gözəllikdə mükəmməl olan insan obrazları incəsənətdə bu mövzuları təcəssüm etdirməli idi. Onlara daha çox universal, ümumbəşəri xarakter verə bilmək arzusu rəssamları bütün fərdi cizgiləri bir tərəfə qoymağa və klassik incəsənətin abidələrində nail olunan həmin gözəlliyi vahid norma və nümunə kimi qəbul etməyə vadar etmişdir.

Əsrin tufanlı hadisələrinin rəssamların axtardığı həmin "sakit əzəmətlə" ümumi heç bir şeyi yox idi və bu ən çox görkəmli rəssamlardan biri, inqilabi klassisizmin əsasını qoyan Jak-Lui Davidin yaradıcılığında özünü təqdim edirdi. Onun qədim Roma qəhrəmanlarının şücaətini mədh edən məşhur "Horatsilərin andı" rəsmi həqiqətən də onları mübarizəyə səsləyərək, rəssamın müasirlərinə müraciət edirdi və Davidin can atdığı bütün o antik gözəllik büsbütün ekspressivliyi ilə fərqlənirdi [2]. Özlərinin atletik bədənləri ilə üç döyüşçünün mərd gözəlliyində və kameyaların ciddi profillərində Doriforun soyuqqanlı sakitliyindən əsər belə yoxdur.



*Jak-Lui David. Horatsilərin andı.*

Bir sıçrayışla irəli atılmağa çalışan bütün bu monolit

qrup şiddətli enerji və dramatizmlə nəfəs alır. Yuxarı qalxan əllərin üç dəfə təkrarlanan jesti fiqurların yumşaq passivliyində daha çox vurğulanan həmin xüsusi güc və ifadəliliyi qazanır. Bu kəskin vurğular, kontrastlardakı oyun, ifadələrin son dərəcə gərginliyi - hər şey yeni həyatı, klassik incəsənətin plastik formalarına sığaraq, dövrün tufanlı nəfəsindən danışır. Ən zidd tendensiyalarla dolu olan tarixi rəsmlərindən daha çox klassik forma ilə qovuşduğu məşhur portretlərində David özü də hiss etmədən əsl antik ruha yaxınlaşır. Onun incə, gözəl modelinin xarakteri, poza sərbəstliyi, kompozisiyanın zərif ölçülüb-biçilməsi ilə bir-birinə qovuşduğu məşhur "Xanım Rekamenin portreti" belə əsərlərdəndir. Harmonik aydınlıqla dolu olan bu portretdə Davidin sərt zəkası ustanın yaradıcı imkanlarının geniş diapazonundan və üslubundan danışaraq, bizə anidən onun lirik tərəfi ilə müraciət edir.

Davidin daha məşhur tələbələrindən olan Enqrin yaradıcılığına məhz "Xanım Rekamenin portreti"ndən istiqamət götürülür. Müəlliminin mərd qəhrəmanlıq və vətəndaş pafosuna yad olan Enqr öz kompozisiyalarında ilk əvvəl qadın obrazlarının nəğməkarı kimi çıxış edir. Rəsmlərdə tayı-bərabəri olmayan sənətkar olan rəssam kontur zərifliyini konkret həyati forma ilə birləşdirir. Onun başlıca gücü siluetin nadir ifadəliliyində, konturu aşkar edən axıcı, aramsız xətlərin ahəngindədir. Həmçinin, Xanım Bevosenin portretində bir-birinin təkrarında ritmik səsləşən incə düşünülmüş kompozisiya və bütün xətlərin valehedici harmoniyasını – həm gözəl üz ovalının son dərəcə təmizliyini, həm də onun cizgilərinin klassik düzgünlüyünü - vurğulayır, eyni zamanda paltarın qara rəngi və məharətlə qoyulmuş şalın qırçınları ziddiyyətlə parlayan obrazı üzə çıxarır [2]. Enqrın portretlərində bir dənə də olsun təsadüfi detal yoxdur və onun formalarının plastik dili modelin üz ifadəsindən daha rəngarəngdir. Burada Enqrın ustalığı tayı-bərabəri olmadan qalır. Lakin onun üslubunun virtuozluğuna və obrazlarının cazibədarlığına baxmayaraq, Enqr öz dövrünün qabaqcıl bədii axtarışlarının can atdığı başlıca axından kənarda qalmır.

İncəsənət, qədim miflərin poeziyasının ikinci plana atıldığı canlı gerçəklik və müasirliyi narahat edən suallarını daha çox əks etdirməyə meyl edir. Lakin klassisizm incəsənətində əks olunan təmizlik və insan obrazının ucaldılmış gözəlliyi öz cazibəsini hələ uzun illər - bu istiqamət özünün aparıcı mahiyyətini itirərək, akademik qaydaların dəstinə döndükdən sonra belə - qoruyub saxlayır. Çox qəribədir ki, klassisizm son işartısı ilə bizim qarşımızda gözəllik, məğrur və azad insan haqqında arzuları ilə romantiklərin əsərlərində yüksək təcəssümə malik olur. Əbəs deyil ki, Delakruanın özü 1830-cu il iyul inqilabının canlı təəssüratları əsasında işlədiyi "Azadlıq" əsərində xalqı aparan azadlığın coşqun obrazını yaradarkən, klassik idealın təsiri altında qalmışdır. Onun yaradıcılığında Mərakeşə və Əlcəzairə etdiyi səfər böyük iz buraxmışdır. "Əlcəzair qadınları" tablosunun qızğın və ahəngdar rəngləri, vəhşi atları əhliləşdirən ərəblərin cəld hərəkətləri rəssamın gərgin təxəyyülünü üzə çıxarır. O, Şərq xalqlarının milli xüsusiyyətlərini, Şərqin koloritini yüksək sənətkarlıqla ifadə etmişdir. Delakrua deyirdi: "Mənə palçıq verin, mən ondan insan bədəninin rəngini düzəldim" [4].

Həmin dövrün tanınmış rəssamlarından olan Bryullov öz müasirlərini ilk növbədə, modellərinin romantik təlaş və hisslərinin aydınlığını gözəl obrazlarının klassik mükəmməlliyi ilə birləşdirib vəhdət yaratmaqla qabaqlayırdı. Bryullovda, insan özünün bütün gözəlliyini, öz təbiətinin bütün ali incəliyini göstərmək üçün ortaya çıxır deyən Qoqol, "Pompeyin son günü" haqqında yazırdı: "Ehtiras, sadiqlik, odlu hisslər belə gözəl sima ilə belə gözəl insanda təzahür edir ki, məst olmuşcasına zövq alırsan." Ən azı məsələn, Bryullovun zərif qadın gözəlliyinin əsl apofeozu kimi ortaya çıxan, baldan qayıdan Samoylovanın portreti və ya məşhur "Atlı qadın" kimi bir çox əsərlərini xatırlayaraq, biz yazıçının bu sözləri ilə razılaşmağa hazırıq. E.A. Baratinski isə məşhur aforizmində "Pompeyin son günü rus rəssamlığı üçün birinci gündür!" demişdir [5].



Karl Bryullov. Atlı qadın.

"Atlı qadın" əsərində gözəl bir zadəgan xanımın surəti verilmişdir. O, dəlisov ata minmiş və sevinc dolu sakit nəzərləri ilə tamaşaçıya baxır. Evin eyvanında dayanmış məsum qızcığazın gözləri də sevincdən parlayır. Adi təntənəli portretlərə bənzəməyən, böyük məharət və ilhamla çəkilmiş bu əsər, modelin real cizgilərində özünün bədii idealının təzahürünü görən ustanın poetik hiss və həyəcanını ifadə edir. Bu əsərdə Bryullov - hərəkət və müxtəlif aksesuarlarla zəngin, əsas mövzunun açılmasına xidmət edən özünəməxsus portret-şəkil yaradaraq - öz portret janrının sərhədlərini aşır. Effektli, hərəkətlə dolu "Atlı qadın" rəsmində bizi dərhal

gənc amazonkanın romantik, bayramsayağı-təmtəraqlı obrazı valeh edir. Biz hətta portretdə məhz kimin təsvir olunduğu haqqında düşünmürük. Bizim qarşımızda rəssamın gördüyü gözəllik, gənclik və xoşbəxtliyin canlı ifadəsi dayanıb. İnsan gözəlliyinin şeiriyyətini ifadə edən bu əsər tamaşaçıya xoş və gümrah təsir bağışlayır. Ümumiyyətlə, Karl Bryullovun bir çox portretlərinin təsvirində onun dəbdəbə və təntənə ifadə etdiyini hiss edirik.

**Nəticə**

Beləliklə, ənənəvi klassik "formalar" və mümkün olan bütün "yüksək" süjetlər bundan sonra yalnız rəsmi akademik incəsənətdə təcəssüm olunurdu. Klassik antik incəsənət və Rafaeldən əldə edilmiş pozulmayan normalar özünün əvvəlki mahiyyətini itirir. Onu aktuallığın tələbi ilə bədii zövqlərin dəyişkənliyi, gözəllik anlayışının nisbiliyi əvəz edir. Mükəmməl proporsiyalar, formaların saflığı yerinə hər hansı bir müəyyən sistemə sığmayan və heç bir qaydalara tabe olmayan yeni estetikanın mahiyyətini müəyyən edən "ifadəliliyə" və "səciyyəviliyə" can atmaq qabağa çıxır. Stendal kitabında yazırdı: "Burun forması və müxtəlif xarakterlər olduğu qədər gözəllik idealı mövcuddur". Balzak isə deyirdi ki, mükəmməl gözəllik soyuqluqla müşayiət olunur. Onlarla bütünlükdə razı olan rəssamlar öz növbələrində mövzu və süjetlərin bütün dünyada geniş yayılması, bədii ifadənin yeni vəsaitləri və canlı gözəlliyin sonsuz çoxşaxəliliyi naminə çalışırdılar.

## ƏDƏBİYYAT

1. Məmmədova L., Əliyev H. Təsviri sənət nəzəriyyəsi. Dərs vəsaiti, Naxçıvan, 2017
2. Məmmədova L., Əliyev H. Heykəltəraşlıq və rəngkarlıqda insan gözəlliyinin təcəssümü. Monoqrafiya, Naxçıvan, 2017
3. Дмитриева Н.А. Краткая история искусств. Искусство, Москва, 1987
4. Золотов Ю.К. Французский портрет XVIII века. Москва, 1968
5. Кузнецова И.А. Красота человека в искусстве. Искусство, Москва, 1980

***Naxçıvan Müəllimlər İnstitutu**
**E-mail: lemanmamedovaa@mail.ru**
**Beynəlxalq Dil Mərkəzi**
**E-mail: elsen.hudiyev@gmail.com***

**Leman Mammadova, Elshan Khudiyev**

## THE SIGNIFICANCE OF THE PORTRAIT GENRE IN THE 18TH-CENTURY ART

The article shows the main trends in the art of the 18th century and also analyzes some paintings of this period. New conditions of social and ideological life determine the formation of a new large stage in the history of artistic culture. In the 18th century, a process of decisive changes in the relationship between types and genres of art began, which reached its completion in the next century. The uniqueness of the striking contribution that European art of the 18th century made to the history of world artistic culture, in the fine arts, artistic progress was an important process. The best masters of the 18th century created art that was a step forward not only to their predecessors but also in the development of world artistic culture as a whole. They created an individual, refined art that comparatively analyzed the subtlest nuances of feelings and moods. Graceful intimacy, restrained lyricism, and polite, merciless, analytical observation are the characteristic features of this art (especially in the portrait genre). An accurate sense of a subtly captured or wittily "staged" plot situation is the essence of the qualities, characteristic of both the remarkable portraiture of this century (Latour, Gainsborough, Houdon) and the best multi-figure genre compositions, be it gallant festivities and everyday scenes of Watteau and Fragonard, modest everyday motifs of Chardin or urban landscapes of Guardi.

**Keywords:** *18th-century art, artist, sculptor, portrait genre, painting, sculpture, artistic image in art*

**Ляман Мамедова, Эльшан Худиев**

## ЗНАЧЕНИЕ ПОРТРЕТНОГО ЖАНРА В ИЗОБРАЗИТЕЛЬНОМ ИСКУССТВЕ XVIII ВЕКА

В статье показаны основные тенденции искусства XVIII века, а также проанализированы некоторые полотна этого периода. Новые условия общественной и идейной жизни определяют сложение нового большого этапа в истории художественной культуры. В 18 веке берет начало процесс решительного изменения в соотношении видов и жанров искусства, получивший свое завершение в следующем столетии. Своеобразие яркого вклада, которое внесло европейское искусство 18 века в историю мировой художественной культуры, в изобразительном искусстве художественный прогресс имел важный процесс. Лучшие мастера 18 века создали искусство, представляющее собой шаг вперед не только по отношению к своим предшественникам, но и в развитии мировой художественной культуры в целом. Они создали искусство индивидуальное, утонченное, дифференцированно анализирующее тончайшие нюансы чувств и настроений. Изящная интимность, сдержанная лиричность, вежливо-беспощадная, аналитическая наблюдательность — характерные особенности этого искусства (особенно в портретном жанре). Точное чувство тонко уловленной или остроумно «инсценированной» сюжетной ситуации суть качества, свойственные и замечательному портрету этого века (Латур, Гейнсборо, Гудон) и лучшим многофигурным жанровым композициям, будь то галантные празднества и бытовые сценки Ватто и Фрагонара, скромные бытовые мотивы Шардена или городские пейзажи Гварди.

**Ключевые слова:** *искусство XVIII века, художник, скульптор, портретный жанр, живопись, скульптура, художественный образ в искусстве*

*AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 19.01.2024**
**Son daxilolma tarixi:11.03.2024**